***"Dövlət qeydiyyatına alınmışdır"***

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən

İdarə rəisi: ______________________

Bu sənəd elektron imza vasitəsilə imzalanmışdır.

"Təsdiq Edilmişdir"
Azərbaycan İnvestisiya Holdinqinin
Müşahidə Şurasının
2022-ci il 8 iyul tarixli 17 nömrəli
qərarı ilə

# *"Bakı Metropoliteni"*

# *Qapalı Səhmdar Cəmiyyətinin*

# *Nizamnaməsi*

## 1. Ümumi müddəalar

1.1. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamına (bundan sonra – Sərəncam) əsasən yaradılmışdır.

1.2. Cəmiyyət Bakı metropoliteninin inkişaf etdirilməsi, sərnişinlərin metro nəqliyyatında daşınmaları üzrə xidmətlərin göstərilməsi, bu xidmətlərin keyfiyyətinin yüksəldilməsi, yeni metropoliten xətlərinin və stansiyalarının tikintisi, metropolitenin maddi-texniki bazasının gücləndirilməsini (bundan sonra - müvafiq sahə) təmin edən kommersiya hüquqi şəxsidir.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını və bu Nizamnaməni rəhbər tutur.

1.4. Cəmiyyət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Cəmiyyətin müstəqil balansı, mülkiyyətində olan əmlakı, bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, habelə müvafiq ştampları, blankları, bayraq, loqotip (emblem), əmtəə nişanı və digər fərqləndirici nişanları, habelə xüsusi xidməti geyim forması vardır.

1.6. Qanuna uyğun olaraq Cəmiyyətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.7. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda – "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti;

1.7.2. qısaldılmış halda – "Bakı Metropoliteni" QSC;

1.7.3. ingilis dilində tam adı – "Baku Metropolitan" Closed Joint-Stock Company;

1.7.4. ingilis dilində qısaldılmış adı – "Baku Metropolitan" CJSC.

1.8. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Mikayıl Rəfili, ev 16

## 2. Cəmiyyətin fəaliyyət istiqamətləri

2.1.Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.3. sərnişinlərin metro nəqliyyatında vaxtında və təhlükəsiz daşınmasını təmin etmək;

2.1.4. metro nəqliyyatında hərəkətin və infrastrukturun idarə olunmasında müasir texnologiya və üsulları tətbiq etmək;

2.1.5. metropolitendə qatarların hərəkətinin təşkilini və təhlükəsizliyini təmin etmək;

2.1.6. metropolitenin işi ilə əlaqədar istehsalat, inzibati, yaşayış və sosial-mədəni təyinatlı və digər obyektlərin tikintisini, təmirini və bərpasını həyata keçirmək;

2.1.7. metropoliten stansiyalarının, xətlərinin, elektrik depolarının, tunellərin, körpülərin tikintisi, yenidən qurulması, bərpası və təmiri işlərini həyata keçirmək;

2.1.8. fəaliyyət istiqamətlərinə uyğun materialları və avadanlıqları istehsal etmək və satmaq;

2.1.9. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Cəmiyyətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahənin inkişafı ilə bağlı qəbul edilmiş normativ hüquqi aktların, inkişaf konsepsiyaları və məqsədli proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.2. Cəmiyyətin maddi-texniki bazasını gücləndirmək, mövcud istehsal gücündən səmərəli istifadə etmək, müasir texnika və texnologiyalardan istifadə etməklə metropolitenin infrastrukturunu inkişaf etdirmək, eləcə də ətraf mühitə zərərli təsirin minimuma endirilməsi üçün tədbirlər görmək;

3.1.3. metropoliten şəbəkəsinin inkişaf etdirilməsi məqsədlə bu sahədə qabaqcıl təcrübəni öyrənmək, beynəlxalq əməkdaşlığı həyata keçirmək;

3.1.4. Cəmiyyətin qurğu və avadanlıqlarının texniki təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görmək;

3.1.5. Cəmiyyətin, onun törəmə və asılı təsərrüfat cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin inkişafına dair uzunmüddətli proqnozlar, məqsədli kompleks istehsal, elmi-texniki, iqtisadi və sosial proqramlar hazırlamaq, müvafiq sahədə qəbul edilmiş dövlət proqramları da daxil olmaqla onların icrasını təmin etmək;

3.1.6. qəza hallarının maksimum azaldılmasını, habelə sərnişinlərin təhlükəsizliyinin və onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsini təmin etmək;

3.1.7. Cəmiyyətin mülkiyyətində, icarəsində, istifadəsində olan əmlakı yanğın təhlükəsizliyi sistemləri ilə təmin etmək, habelə onların mühafizəsini təşkil etmək;

3.1.8. Cəmiyyətin infrastrukturunun etibarlı mühafizəsini təmin etmək üçün mühafizə xidmətlərini və daxili nəzarət sistemlərini təşkil etmək;

3.1.9. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin iqtisadi və maliyyə vəziyyətini təhlil etmək və onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə tədbirlər görmək;

3.1.10. Cəmiyyətin işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi məqsədi ilə tədbirlər görmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun sahələrdə kadrlarla işin təşkili və aparılması, personalın bilik səviyyəsinin (o cümlədən, texniki istismar və yanğın təhlükəsizliyi qaydaları sahəsində) yoxlanılması ilə bağlı tədbirlər görmək;

3.1.12. müvafiq hüquqi aktlara Cəmiyyətə münasibətdə verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.13. Cəmiyyətdə yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə ətraf mühitə təsirinin minimuma endirilməsi, ətraf mühitin qorunması və bərpasına yönəldilmiş tədbirlər görmək;

3.1.14. dövlət vəsaiti (dövlət büdcəsi, dövlətin aldığı və dövlət zəmanəti ilə alınmış kreditlər və qrantlar) hesabına satınalmaları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun, digər hallarda satınalmaları isə Cəmiyyətin daxili normativ sənədlərinin tələblərinə uyğun olaraq həyata keçirmək;

3.1.15. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

3.1.16. Cəmiyyətin fəaliyyətinin və inkişafının təmin edilməsində müasir idarəetmə sistemlərini və rabitə xidmətlərini etibarlı mühafizə vasitələri ilə təchiz etməklə təşkil etmək;

3.1.17. Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnu, o cümlədən həmin əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması, qiymətləndirilməsi, təyinatının dəyişdirilməsi səlahiyyətlərini qanunvericiliyə uyğun olaraq həyata keçirmək;

3.1.18. Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə riskləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək, habelə sığortalanma siyasətinin optimallaşdırılması istiqamətində müvafiq tədbirlər görmək;

3.1.19. Cəmiyyətin işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi tədbirlərini həyata keçirmək;

3.1.20. bu Nizamnamədə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

3.2. Cəmiyyət bu Nizamnamənin 3.1-ci bəndində göstərilən vəzifələri həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.2.1. müvafiq sahədə normativ hüquqi akt, inkişaf konsepsiyaları və məqsədli proqramların qəbul edilməsi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. Cəmiyyətin fəaliyyətinin inkişaf etdirilməsinə, effektivliyinin yüksəldilməsinə, maddi-texniki bazasının modernləşdirilməsinə xidmət edən investisiya fəaliyyətini həyata keçirmək;

3.2.3. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.4. Cəmiyyətin filial və nümayəndəliklərini, habelə təsərrüfat cəmiyyətlərini yaratmaq;

3.2.5. kadr potensialını inkişaf etdirmək, ixtisaslaşdırılmış ali, orta ixtisas və peşə təhsili müəssisələrini idarə etmək, onların təsis edilməsi ilə bağlı təklif vermək;

3.2.6. Cəmiyyətin maddi və qeyri-maddi aktivlərini idarə etmək və onların barəsində sərəncam vermək;

3.2.7. qanuna uyğun olaraq Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda daşınar və daşınmaz əmlak almaq və icarəyə götürmək;

3.2.8. Cəmiyyətə məxsus nəqliyyat vasitələrini istismar etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə uyğun materialların və avadanlıqların istehsalı və satışını həyata keçirmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.11. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.12. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.13. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək, bu cür tədbirlərdə iştirak etmək;

3.2.15. əməkdaşlarını dövlət təltiflərinə və mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.16. Cəmiyyətin fəaliyyətinin təkmilləşdirilməsinə dair təklifləri Azərbaycan İnvestisiya Holdinqinə (bundan sonra – AİH) təqdim etmək;

3.2.17. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 2 580 638 397,20 (iki milyard beş yüz səksən milyon altı yüz otuz səkkiz min üç yüz doxsan yeddi manat iyirmi qəpik) manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 14,14 (on dörd manat on dörd qəpik) manat olan 182 506 251 (yüz səksən iki milyon beş yüz altı min iki yüz əlli bir) ədəd adi səhmdən ibarətdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

4.2. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.3. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən, digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Cəmiyyətin əmlakının dəyəri onun balansında əks olunur.

4.4. Cəmiyyətin əmlakı aşağıdakı mənbələr hesabına formalaşır:

4.4.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.4.2. fəaliyyətindən əldə olunan gəlirlər;

4.4.3. cəlb edilən investisiyalar;

4.4.4. qanunla qadağan olunmayan digər mənbələr.

4.5. Cəmiyyət öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun istifadə edir. Cəmiyyət öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarını Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlara və bu Nizamnaməyə uyğun olaraq həyata keçirir.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

4.7. Cəmiyyət qanunla müəyyən edilən vergiləri və digər dövlət ödənişlərini ödədikdən sonra Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə törəmə və asılı təsərrüfat cəmiyyətlərinin fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

4.8. Dövlət Cəmiyyətin öhdəliklərinə görə cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərərə görə dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır. Cəmiyyət öz öhdəlikləri üçün mülkiyyətində olan əmlakla cavabdehdir.

4.9. Cəmiyyət dövlətin üzərinə götürdüyü hər hansı öhdəliklərə görə cavabdeh deyildir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Cəmiyyətin korporativ idarəetmə standartları AİH tərəfindən təsdiq olunur.

5.2. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır (bundan sonra – Ümumi Yığıncaq). Cəmiyyətin idarəetmə orqanları Müşahidə Şurası və kollegial icra orqanı – İdarə Heyətidir.

5.3. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər Sərəncama uyğun olaraq həyata keçirilir.

5.4. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilməyən məsələlər barədə qərarlar AİH tərəfindən onun nizamnaməsinə uyğun olaraq qəbul edilir.

## 6. Cəmiyyətin Müşahidə Şurası

6.1. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Cəmiyyətin Müşahidə Şurası (bundan sonra – Müşahidə Şurası) həyata keçirir. Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 (beş) üzvdən ibarətdir. Cəmiyyətin İdarə Heyətinin (bundan sonra – İdarə Heyəti) üzvləri Müşahidə Şurasına üzv təyin edilə bilməz. Müşahidə Şurası öz fəaliyyətinin nəticələrinə görə Ümumi Yığıncaq qarşısında cavabdehlik daşıyır. Müşahidə Şurasının üzvlərinin səlahiyyət müddəti 3 (üç) il təşkil edir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər.

6.2. Müşahidə Şurasının vəzifələri aşağıdakılardır:

6.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

6.2.2. İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək, AİH-in təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq onun fəaliyyətini qiymətləndirmək;

6.2.3. İdarə Heyətinin üzvlərinin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yol verilməyən hallar istisna olmaqla, Müşahidə Şurasının üzvlərinin mükafatlandırılması qaydasını müəyyən etmək;

6.2.4. Cəmiyyətin aparatının korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək, törəmə və asılı təsərrüfat cəmiyyətlərini yaratmaq, onların nizamnamələrini təsdiq etmək, idarəetmə orqanlarının üzvlərini və rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

6.2.5. Cəmiyyətin komitələrini, habelə Koordinasiya Ofisini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

6.2.6. Cəmiyyətin risklərin idarə olunması, daxili audit və uyğunluğa nəzarət xidmətlərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək;

6.2.7. Cəmiyyətin mərkəzləşdirilmiş fondlarını yaratmaq və onlardan istifadə qaydalarını müəyyən etmək;

6.2.8. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti və səlahiyyət hədlərinə daxil etdiyi daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını) təsdiq etmək;

6.2.9. Cəmiyyətin illik səmərəlilik göstəriciləri üzrə hədəfləri, habelə likvidliyin hədəf göstəricilərini, borcalmanın yuxarı həddini, maliyyə dayanıqlılığının artırılmasına dair hədəf göstəricilərini, eləcə də ortamüddətli biznes planının əsas göstəricilərini təsdiq etmək;

6.2.10. borcun cəlb edilməsi üzrə səlahiyyət hədlərinin təsdiqi və öz səlahiyyət hədləri daxilində borcun cəlb olunması barədə qərarın qəbul edilməsi, kredit təşkilatlarından maliyyə vəsaitlərinin cəlb olunması və banklara maliyyə vəsaitlərinin qoyuluşu üzrə hədlərin müəyyənləşdirilməsi;

6.2.11. Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Cəmiyyətin investisiya layihələrini və onların icrasına dair hesabatları, eləcə də Cəmiyyətin inkişaf strategiyasının və biznes planının əsas göstəricilərinin icrasına dair hesabatı təsdiq etmək;

6.2.12. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

6.2.13. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdlərin təsdiqi ilə bağlı qaydaları (hədləri) müəyyən etmək və öz səlahiyyət hədlərinə daxil etdiyi aidiyyəti şəxslərlə əqdləri təsdiq etmək;

6.2.14. Cəmiyyətin büdcəsini, o cümlədən xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarət etmək;

6.2.15. Cəmiyyətin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini yaratmaq, normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, Cəmiyyətin maliyyə və digər hesabatlarının formasını təsdiq etmək və təqdim edilməsi müddətlərini müəyyənləşdirmək;

6.2.16. Cəmiyyətin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;

6.2.17. Cəmiyyətin müstəqil auditorunu müəyyən etmək, bununla bağlı müqavilənin bağlanmasına, onun dəyişdirilməsinə və ona xitam verilməsinə razılıq vermək;

6.2.18. Cəmiyyətin Audit Komitəsinin, daxili audit xidmətinin və müstəqil auditorun yoxlamalarının nəticələrinə dair tədbirlər görmək;

6.2.19. Cəmiyyətdə mənfəətin və zərərin bölgüsünü, illik hesabatları və maliyyə hesabatlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək;

6.2.20. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;

6.2.21. Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

6.2.22. Cəmiyyətin dayanıqlı inkişafa dair hesabatını təsdiq etmək;

6.2.23. Müşahidə Şurasının iclaslarının keçirilməsi qaydasını təsdiq etmək;

6.2.24. bu Nizamnamə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə Müşahidə Şurası haqqında AİH-in təsdiq etdiyi əsasnamə ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

6.3. Müşahidə Şurası özünün səlahiyyətlərinə aid edilmiş məsələlərin həllini İdarə Heyətinə həvalə edə bilməz.

6.4. Cəmiyyətin Müşahidə Şurasının üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər. Müşahidə Şurası üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi AİH-in təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq həyata keçirilir.

6.5. Müşahidə Şurasının sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Müşahidə Şurasının iclasını çağırır və iclaslara sədrlik edir. Müşahidə Şurasının iclaslarının keçirilməsi təşəbbüsü ilə AİH, Müşahidə Şurasının üzvü və ya İdarə Heyətinin sədri çıxış edir.

6.6. Müşahidə Şurasının korporativ katibi Müşahidə Şurasının sədri ilə razılaşdırıldıqdan sonra Müşahidə Şurasının iclasının gündəliyini iclasa azı 2 (iki) həftə qalmış tövsiyələrin hazırlanması üçün AİH-ə göndərir. AİH iclasa azı 1 (bir) həftə qalmış gündəliyə daxil edilmiş məsələlərə dair tövsiyələrini hazırlayıb Müşahidə Şurasına göndərir.

6.7. Korporativ katib Müşahidə Şurasının iclasının keçiriləcəyi yer və vaxt (distant formada keçirilən iclaslara münasibətdə iclasın keçiriləcəyi vaxt), habelə iclasın gündəliyi, səsvermə keçirilməsi və qərar qəbul edilməsi tələb olunan məsələləri, habelə iclasa aid digər materialları Müşahidə Şurasının bütün üzvlərinə göndərir

6.8. Müşahidə Şurasının iclasları onun üzvlərinin bilavasitə iştirakı ilə əyani formada, informasiya texnologiyalarından istifadə etməklə distant formada, üzvlərinin bilavasitə iştirakı olmadan qiyabi formada, yaxud qarışıq formada keçirilə bilər. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə, qiyabi formada keçirilən iclasları isə üzvlərin yarıdan çoxu səsvermə bülletenlərini imzaladıqda səlahiyyətlidir. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclaslarına Müşahidə Şurasının üzvü olmayan şəxslər də dəvət oluna bilərlər.

6.9. Müşahidə Şurasının iclaslarında qərarlar aşağıdakı qaydada qəbul olunur:

6.9.1. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclaslarında qərarlar açıq səsvermə yolu ilə, iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir;

6.9.2. Müşahidə Şurasının qiyabi formada keçirilən iclaslarında qərarlar üzvlər tərəfindən səsvermə bülletenlərinin imzalanması yolu ilə qəbul edilir;

6.9.3. Müşahidə Şurasının qarışıq formada keçirilən iclaslarında qərarlar bu Nizamnamənin 6.9.1-ci yarımbəndinə uyğun olaraq keçirilən səsvermə və bu Nizamnamənin 6.9.2-ci yarımbəndinə uyğun olaraq səsvermə bülletenlərini imzalamış üzvlərin səsi nəzərə alınmaqla qəbul edilir;

6.9.4. Müşahidə Şurasının üzvü iclasın gündəliyinə daxil edilmiş istənilən məsələ barədə Ümumi Yığıncaq tərəfindən qərar qəbul edilməsi tələbi ilə AİH-ə müraciət edə bilər. Məsələnin Ümumi Yığıncağa qaldırılıb-qaldırılmaması barədə qərar AİH tərəfindən qəbul olunur. Müraciətlə bağlı AİH qərar qəbul edənədək həmin məsələ üzrə Müşahidə Şurası tərəfindən qərar qəbul olunmur;

6.9.5. iclasın gündəliyinə Müşahidə Şurasının üzvlərinin (sədr də daxil olmaqla) maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında AİH-ə ətraflı yazılı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir;

6.9.6. gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılığı olduğu hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

6.10. Müşahidə Şurasının iclaslarının nəticələri Müşahidə Şurasının sədri və korporativ katib tərəfindən imzalanmaqla protokolla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur. Müşahidə Şurasının iclasında İdarə Heyətinə, komitələrə, korporativ katibə verilən tapşırıqlar protokola əlavə olunaraq rəsmiləşdirilir.

6.11. Müşahidə Şurası bu Nizamnamənin 6.2.5-ci yarımbəndinə uyğun olaraq aşağıdakı komitələri yaradır:

6.11.1. Audit Komitəsi;

6.11.2. Təyinat və Mükafatlandırma Komitəsi;

6.11.3. Strategiya və İnvestisiyalar Komitəsi.

6.12. Müşahidə Şurası tərəfindən öz səlahiyyətlərinin həyata keçirilməsinin çevikliyini və keyfiyyətini təmin etmək və Cəmiyyətin cari fəaliyyətini əlaqələndirmək məqsədilə, bu Nizamnamənin 6.2.5-ci yarımbəndinə uyğun olaraq, Müşahidə Şurasının Koordinasiya Ofisi (bundan sonra – Koordinasiya Ofisi) yaradılır. Koordinasiya Ofisinin tərkibi Müşahidə Şurası tərəfindən təsdiq olunur. Koordinasiya Ofisinin rəhbəri Müşahidə Şurasının üzvlərindən təyin olunur. Koordinasiya Ofisinin fəaliyyət dairəsinə aid edilən məsələlər Müşahidə Şurasının qərarı ilə təsdiq olunur. Koordinasiya Ofisinin funksiyaları, vəzifələri, iclaslarının keçirilməsi və qərarlarının qəbul edilməsi qaydası Müşahidə Şurası tərəfindən təsdiq edilən əsasnamə ilə müəyyən edilir.

6.13. Korporativ katib AİH-in təqdimatına əsasən Müşahidə Şurası tərəfindən Müşahidə Şurasının üzvü olmayan şəxslər sırasından vəzifəyə təyin və vəzifədən azad edilir və Müşahidə Şurasının sədrinə hesabat verir. Korporativ katib Müşahidə Şurasının iclasında iştirak edə bilmədikdə Müşahidə Şurasının sədri onu əvəz edəcək şəxsi AİH-in təqdimatına əsasən təyin edir.

6.14. Korporativ katib:

6.14.1. Müşahidə Şurasının iclaslarını təşkil edir;

6.14.2. bu Nizamnamənin 6.6-cı və 6.7-ci bəndlərində nəzərdə tutulmuş vəzifəni icra edir;

6.14.3. Müşahidə Şurasının iclasına aid materialları bu Nizamnamədə göstərilən qaydada və müddətdə AİH-ə və Müşahidə Şurasının üzvlərinə təqdim edir;

6.14.4. AİH ilə Müşahidə Şurasının üzvləri, eləcə də İdarə Heyəti arasında sənəd və məlumat mübadiləsini həyata keçirir;

6.14.5 Müşahidə Şurasının qərarlarının layihələrini hazırlayır, baxılması və imzalanması üçün Müşahidə Şurasının sədrinə təqdim edir;

6.14.6. Müşahidə Şurasının iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Müşahidə Şurasının sədrinə təqdim edir;

6.14.7. Müşahidə Şurasının qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir;

6.14.8. Müşahidə Şurasının təsdiq etdiyi əsasnamə ilə müəyyən edilən digər funksiyaları həyata keçirir.

## 7. Cəmiyyətin İdarə Heyəti

7.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi onun kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir. İdarə Heyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 (beş) üzvdən – Cəmiyyətin sədrindən və digər 4 üzvdən (sədr müavinləri) ibarətdir. İdarə Heyətinin fəaliyyətinə Cəmiyyətin sədri rəhbərlik edir. İdarə Heyətinin üzvlərinin səlahiyyət müddəti 3 (üç) il təşkil edir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər.

7.2. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

7.2.1. Cəmiyyətin fəaliyyətini təşkil etmək;

7.2.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə Müşahidə Şurasına təkliflər vermək və sənədlər (o cümlədən Cəmiyyətin illik və rüblük hesabatlarını, habelə strateji planlarının icrası barədə hesabatları) təqdim etmək;

7.2.3. Cəmiyyətin Nizamnaməsinə, habelə nizamnamə kapitalına dəyişikliklər edilməsi barədə Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək;

7.2.4. Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması barədə Müşahidə Şurasına təkliflər vermək;

7.2.5. Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının icrasını təmin etmək;

7.2.6. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək, həmçinin Müşahidə Şurası tərəfindən müəyyən edilmiş səlahiyyət hədləri daxilində aidiyyəti şəxslə əqdi təsdiq etmək;

7.2.7. Cəmiyyətin strukturuna daxil olan qurumların, törəmə və asılı təsərrüfat cəmiyyətlərin fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq etmək;

7.2.8. Cəmiyyətin strukturuna daxil olan qurumların, törəmə və asılı təsərrüfat cəmiyyətlərinin istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul etmək;

7.2.9. Cəmiyyətin strukturuna daxil olan qurumlar, törəmə və asılı təsərrüfat cəmiyyətləri arasında mübahisələrin həlli üçün tədbirlər görmək;

7.2.10. Cəmiyyətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinin məqsədəuyğunluğu barədə qərar qəbul etmək;

7.2.11. Cəmiyyətin mərkəzləşdirilmiş fondlarının yaradılmasına və istifadəsinə dair Müşahidə Şurasına təkliflər vermək;

7.2.12. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

7.2.13. bu Nizamnamə ilə Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll etmək.

7.3. Cəmiyyətin sədri:

7.3.1. Cəmiyyətin işini təşkil edir və onun cari fəaliyyətinə rəhbərlik edir;

7.3.2. Cəmiyyətin korporativ strukturunu və ştat cədvəlini Müşahidə Şurası ilə razılaşdırmaqla təsdiq edir;

7.3.3. Cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edir və onun səmərəli fəaliyyət göstərməsi üçün tədbirlər görür;

7.3.4. Cəmiyyətin struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

7.3.5. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Cəmiyyətin işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

7.3.6. Cəmiyyətin işçilərinin vəzifə təlimatlarını təsdiq edir;

7.3.7. Cəmiyyətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

7.3.8. etibarnamələr verir, banklarda hesablar açır, hesabları və tədiyə tapşırıqlarını imzalayır;

7.3.9. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə münasibətdə Cəmiyyəti təmsil edir;

7.3.10. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

7.3.11. Cəmiyyətin əmlakından bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun istifadə edir, Cəmiyyətin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini Müşahidə Şurası ilə razılaşdırmaqla Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir;

7.3.12. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

7.3.13. Müşahidə Şurasının səlahiyyət hədlərinə daxil edilmiş aidiyyəti şəxslərlə əqdlərin təsdiq edilməsi barədə Müşahidə Şurasına təkliflər verir;

7.3.14. Müşahidə Şurası ilə razılaşdırmaqla, Cəmiyyətin törəmə və asılı təsərrüfat cəmiyyətlərinin, həmçinin onun strukturuna daxil olan qurumların rəhbərlərinin müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir;

7.3.15. Ümumi Yığıncağın, Müşahidə Şurasının və İdarə Heyətinin səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

7.4. Cəmiyyətin sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə İdarə Heyətinin üzvlərindən biri icra edir. İdarə Heyətinin üzvləri Cəmiyyətin müvafiq idarə, filial və nümayəndəliklərinin, habelə törəmə hüquqi şəxslərinin rəhbəri vəzifəsini tuta bilərlər.

7.5. İdarə Heyətinin iclaslarının çağırılması, keçirilməsi və qərarların qəbul edilməsi ilə bağlı qaydalar AİH-in təsdiq etdiyi İdarə Heyəti haqqında əsasnamə ilə müəyyən edilir.

7.6. Cəmiyyətin İdarə Heyətinin üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidir, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

7.7. İdarə Heyətinin sədri ayda 1 (bir) dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvləri və Müşahidə Şurası çıxış edir. İdarə Heyətinin iclasında hər bir üzvün bir səsi olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir, səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

7.8. İdarə Heyətinin iclaslarına münasibətdə bu Nizamnamənin 6.9.1 – 6.9.3-cü yarımbəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir. İdarə Heyətinin iclasları bu Nizamnamənin 6.10-cu bəndinə uyğun olaraq protokollaşdırılır.

## 8. Cəmiyyətdə uçot, hesabat və nəzarət

8.1. Cəmiyyət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

8.2. "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

8.3. Cəmiyyətin maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır.

8.4. Müşahidə Şurasının sədri və üzvləri, İdarə Heyətinin üzvləri, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49.1.5 – 49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

8.5. Müşahidə Şurasının və ya İdarə Heyəti üzvlərinin şəxsi marağı ilə Cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda Müşahidə Şurasının sədri və ya digər üzvü, İdarə Heyətinin üzvləri bu barədə məlumatı Ümumi Yığıncağa yazılı şəkildə təqdim etməlidir. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ayrı qayda nəzərdə tutulmadıqda, Ümumi Yığıncağın qərarı əsasında həyata keçirilə bilər.

## 9. Daxili audit

9.1. Cəmiyyətin daxili audit xidməti Müşahidə Şurasına tabedir.

9.2. Cəmiyyətin daxili audit xidməti Audit Komitəsinə hesabat verir.

9.3. Cəmiyyətin daxili audit xidmətinin əməkdaşları ali iqtisadi və ya hüquqi təhsilə, yaxud digər ixtisas üzrə ali təhsilə və audit və ya əlaqəli sahələrdə 4 (dörd) il iş stajına malik olmalıdırlar.

9.4. Daxili audit xidmətinin vəzifələri aşağıdakılardır:

9.4.1. Cəmiyyətin, onun törəmə və asılı təsərrüfat cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətinin bu Nizamnamənin 1.3-cü bəndində nəzərdə tutulan normativ hüquqi aktlara və Cəmiyyətin daxili sənədlərinə uyğunluğunu yoxlamaq;

9.4.2. Cəmiyyətin həyata keçirdiyi əməliyyatlara mütəmadi nəzarət etmək;

9.4.3. daxili audit yoxlamalarının nəticələri, habelə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması barədə Müşahidə Şurasına məlumat və təkliflər vermək;

9.4.4. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə və bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

9.5. Cəmiyyətin əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan məlumatları (sənədləri) təqdim etməyə, onlara öz vəzifələrinin icrası üçün lazımi şərait yaratmağa borcludurlar.

## 10. Cəmiyyətin müstəqil auditi

Cəmiyyət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 11. Cəmiyyətin törəmə və asılı təsərrüfat cəmiyyətləri, habelə idarə, filial və nümayəndəlikləri ilə qarşılıqlı münasibətləri

11.1. Cəmiyyətin törəmə və asılı təsərrüfat cəmiyyətlərinin, idarə, nümayəndəlik və filiallarının yaradılması, yenidən təşkili və ləğv edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və bu Nizamnaməyə uyğun olaraq həyata keçirilir.

11.2. Cəmiyyətin törəmə və asılı təsərrüfat cəmiyyətləri, habelə idarə, filial və nümayəndəlikləri (bundan sonra – struktur bölmələri) ilə qarşılıqlı münasibətləri Azərbaycan Respublikasının normativ hüquqi aktlarına, bu Nizamnaməyə, habelə onların nizamnamə və əsasnamələrinə və Cəmiyyətin daxili sənədlərinə uyğun olaraq tənzimlənir.

11.3. Cəmiyyətin struktur bölmələri Cəmiyyətin Nizamnaməsinə əməl etməli, öz fəaliyyəti barədə Cəmiyyətə hesabat verməli, Cəmiyyət tərəfindən təsdiq edilmiş iş planlarının, gəlir və xərclər smetasının, büdcənin icrasını təmin etməli, Cəmiyyət tərəfindən keçirilən tədbirlərdə və Cəmiyyətin qarşısında duran vəzifələrin həllində iştirak etməli və onlara həvalə edilmiş digər vəzifələri yerinə yetirməlidirlər.

11.4. Cəmiyyət struktur bölmələri ilə qarşılıqlı münasibətlərdə aşağıdakı səlahiyyətlərə malikdir:

11.4.1. struktur bölmələrinin balansında olan əmlaka münasibətdə sərəncam vermək, o cümlədən həmin əmlakı balansdan balansa, icarəyə və istifadəyə vermək, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoymaq, qiymətləndirmək və təyinatını dəyişdirmək;

11.4.2. struktur bölmələrinin idarəetmə orqanlarını formalaşdırmaq, törəmə və asılı təsərrüfat cəmiyyətlərinə münasibətdə isə həmçinin ümumi yığıncağın səlahiyyətlərinə aid digər səlahiyyətləri həyata keçirmək;

11.4.3. struktur bölmələrinin təsərrüfat fəaliyyəti üzrə proqnoz göstəricilərinin formalaşdırılmasına və hesabatlara nəzarət etmək, bu məsələlərə aid tövsiyələr və təkliflər vermək, müzakirələrdə iştirak etmək;

11.4.4. Cəmiyyətin struktur bölmələrinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin etmək.

## 12. Cəmiyyətin yenidən təşkili və ya ləğvi

Cəmiyyətin yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Azərbaycan İnvestisiya Holdinqinin
Müşahidə Şurasının
2022-ci il 8 iyul tarixli 17 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR.

**"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin**

**STRUKTURU**

1. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin aparatı.
2. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin filial və nümayəndəlikləri.
3. “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin idarələri.